# Prezident xalq birliyi bükünkü inkişafı sürətləndirən başlıca amilidir

***Azərbaycanda görülən işlər, həyata keçirilən bütün layihələr təqdirəlayiqdir. Şübhəsiz ki, ölkəmiz sosialyönümlü siyasətlə də xalqım rifahının yaxşılaşdırılması istiqamətində səmərəli fəaliyyət göstərir, vətəndaş məmnunluguna xüsusi önəm verərərək, bu məsələnin prioritet istiqamət olduğunu bütün dünyaya nümayiş etdirir. Bu ugurlu fəaliyyət Prezident İlham Əliyevin həm də xalqına, Vətəninə bağlılığının, sadiqliyinin parlaq nümunəsidir. Bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib.***




Deputat daha sonra qeyd edib ki, Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə də siyasi, sosial-iqtisadi sahələrdə dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən tədbirlər barədə ətraflı söhbət getdi. Xalqımız ölkə rəhbərinin Vətən müharibəsindən ötən müddətdə respublikada reallaşdırılan inqilabi xarakter daşıyan genişhəcmli layihələr barədə çıxışını maraqla izlədi.

Ölkə başçısı müşavirədə haqlı olaraq qeyd etdi ki, Qarabagın işgaldan azad olunmasına Azərbaycan siyasətində hər zaman prioritet istiqamət kimi yanaşılıb. Təəssüf ki, münaqişənin həllinə məsul ATƏT-in Minsk Qrupuna böyük ümidlər baglansa da, gözləntilər özünü dogrultmadı. Həmsədr ölkələr tərəfindən İkinci Qarabağ müharibəsinə qədər 28 il ərzində adı çəkilən təsisatın təmsilçiləri Azərbaycana və Ermənistana çoxsaylı səfərlər etsələr də, vəziyyət müsbətə doğru dəyişmədi. İkili standartlar üzündən BMT-nin məlum qətnamələri də icra olunmadı.

Bütün bunlara baxmayaraq, münaqişə hərbi yolla heç bir bir dəstək, yardım olmadan aradan qaldırıldı, xalqımız tarixi ədaləti bərpa etdi və Minsk qrupunun uzun bir müddətdə reallaşdıra bilmədiyi ədaləti Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günə gerçəkləşdirdi. Bununla Azərbaycan güclü dövlət, böyük xalq olduğunu bütün dünyaya göstərdi, müharibədən sonra isə Cənubi Qafqazda və eləcə də, qlobal arenada yeni reallıqların əsasını qoydu.

Qeyd etmək yerinə düşər ki, möhtəşəm zəfərimizdən sonra dünya Azərbaycana çox böyük maraq göstərir. Ölkəmizdə biznes əlaqələri yaratmaq istəyi ifadə olunan müraciətlər getdikcə artır. Bu, eyni zamanda, dünyada Azərbaycanın nüfuz göstəricisinin bariz nümunəsidir. Hazırda iqtisadiyyatımız sürətlə inkişaf edir, dayanıqlıq təmin olunur, əlverişli biznes mühiti, saglam rəqabət və sabitlik ölkəmizə göstərilən maragı şərtləndirir.

Müşavirədə keçmiş məcburi köçkünləri əzəli torpaqlarına qaytarmaq üçün kompleks tədbirlər görüldüyünu vurğulayan ölkə başçısı bildirdi ki, otuz il düşmən tapdagı altında qalan, yerlə yeksan olunan şəhər və kəndlərimiz artıq bir ildən çoxdur ki, bərpa edilir, bu ərazilərdə infrastruktur yenidən qurulur, dəmiryolu xətləri, magistrallar çəkilir. Zəngilan və Laçında aeroportların tikintisi sürətlə həyata keçirilir, Füzuli Beynəlxalq Hava Limanını uğurla fəaliyyət göstərir. Bu limanların geniş perspektivlərə yol açmaqla yanaşı, inkişafa, tərəqqiyə mühum töhfələr verəcəyi də şübhəsizdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bütün bunlarla bərabər, körpülər salınır, iş yerlərinin açılmasına müsbət təsir göstərəcək sənaye parkları yaradılır və digər işlərin reallaşması planlaşdırılır. Həçinin müasir innovasiyalara əsaslanan yaşayış evləri tikilir. Şübhəsiz ki, bütün bunları Azərbaycan öz daxili gücü hesabına həyata keçirir. Ölkə başçısının qeyd etdiyi kimi, Qarabağ da, Zəngəzur da nümunəvi bir bölgə kimi yenidən qurulur və vətəndaşlarımızı orada rahat, firavan bir həyat gözləyir. Bu proses özlüyündə həm də dünya üçün də bir nümunəyə çevrilir.

Dövlətimizin başçısı müşavirədə Ermənistanın işğal dövründə törətdiyi vandal hərəkətlər barədə danışarkən, düşmən ölkənin ekoloji terroru nəticəsində Qarabağ və Şərqi Zəngəzurun təbiətinə ciddi ziyan vurduğunu da diqqətə çatdırdı və hazırda bu istiqamətdə mühüm layihələr həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında Ermənistanın Azərbaycana qarşı ekoloji terroru ilə əlaqədar bir neçə il bundan əvvəl xüsusi məruzə hazırlandığını və qəbul edildiyini xatırlatdı: “Orada hər şey açıq-aşkar deyilmişdi. Tərtər çayının suyundan bizi məhrum etmişdilər. Halbuki Heydər Əliyev Suqovuşan su anbarını inşa edəndə Bərdə, Ağdam, Goranboy, Yevlax, Ağcabədi və digər rayonların 100 min hektar torpağını suvarması nəzərdə tutulurdu və su gedirdi. İndi biz Suqovuşana qayıtmışıq, indi suyu bərpa etmişik və yeni kanallar da çəkiləcək...”.

Prezident nitqində düşmənin Bərgüşad, Lev, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay və Oxçuçay kimi çaylarımızı da vəhşicəsinə istismar etdiyini, Oxçuçayı fəlakətli həddə çatdırdığını vurğuladı. Eyni zamanda, çaylarımıza qənim kəsilənlərin, qızıl və digər yataqlarımızı qanunsuz istismar edən şirkətlərin cəzasız qalmayacağına əminliyini də bildirdi.

Qeyd edim ki, müharibədən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə ermənilərin ekologiyaya vurduqları ziyan aradan qaldırılmasına start verilib. Topxanada , Zəngilanda ekoloji müxtəlifliyin qorunması məqsədilə xeyli sayda ağac əkilib. Cəbrayıl, Qubadlı, Füzuli, Laçın, Kəlbəcər, Ağdam rayonları və Şuşada da ümumilikdə 40 mindən çox eldar şamı, göyrüş, qarağac, dağdağan və digər müxtəlif cinsli tinglər basdırılıb.

Rəşad Mahmudov sonda bildirib ki, göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə düşməndən təmizlənən ərazilərimizdə qısa müddətdə son dərəcə ciddi işlər görülüb. Respublikamız ölkə başçısının liderliyi ilə yüksəliş mərhələsində reallıqlarını diqtə etməklə tarixinin ən qüdrətli dövrünə qədəm qoyub. Prezident–xalq birliyi bükünkü inkişafı sürətləndirən başlıca amilidir.

Bu birliklə qarşıda daha yüksək hədəfləri aşacagımıza heç bir şübhə yoxdur.

***“Xalq qəzeti”***